# OBRAZI TANIMAQ İSTƏSƏN

*(Əvvəli ötən sayımızda)*

***"Bəxtsiz talelər"***

Səxavət Ənvəroğlu uğursuz məhəbbət, nakam eşq mövzusunu "Bəxtsiz talelər" adlı hekayəsində də davam etdirmişdir. Bu hekayədə baş verən hadisələr də təhkiyə üsulu ilə müəllifin öz dilindən söylənilir. Bir fərq var ki, hadisələri söyləyən BDU-nun hüquq fəkultəsinin tələbəsidir. O, növbəti semestr imtahanlarına hazırlaşmaq üçün sakit bir yer axtarır. Mayın isti günlərindən birində Bakının Şıx çimərliyinə gəlir. Adamların az olduğu yer axtarır. Qayalıqlara yaxın yerdə, qumlu sahildə, çimərlik geyimində bir qız ilə oğlan söhbət edir, deyib-gülür və yemək yeyirdilər. Oğlan: "Məni sevirsənsə, bunu iç!" - deyərək qıza bir qədəh araq uzadır. Qız güclə yarısını içə bilir. Bu müddətdə hüquq tələbəsi bir dəfə dənizə girib-çıxmış və qumlu sahildə oturub kitab oxumaq bəhanəsiylə arada onların hərəkətlərinə göz qoyurmuş.




Bu vaxt qışqırıq səsi eşidilir. İçib sərxoş olmuş oğlan, zorla "sevdiyi" qıza hücum etmək istəyir. Qız "kömək edin!" deyərək qışqırırdı. Tələbə oğlan tez qıza yardım göstərir, sərxoş oğlanı dartıb kənara itələyir. Əvəzində özü də oğlandan zərbə alır və huşunu itirib yıxılır.

Ayılanda özünü xəstəxanada görür. Müstəntiq gəlir sorğu aparır; tələbə deyir ki, qayalıqda kitab oxuyarkən ilan görür, qorxub çəkildikdə qayalıqdan yıxılır, əl-qolunu əzir... Həqiqəti demir. Nəhayət, müstəntiq əlacsız qalıb ona inanır, protokola imza etdirir və çıxıb gedir. Yanına xilas etdiyi qız da gəlir. Ona minnətdarlığını bildirir. Yaxşı tanımadığı həmin avara, yaramaz oğlanın - "segilisi"nin çıxıb itdiyini deyir. İndi tək qaldığını, əgər istəsə, gəlib onunla qala bilməsini tələbə oğlana təklif edir.

Lakin tələbə oğlan yataqxanada qalmağı üstün tutur. Nəhayət o, xəstəxanadan çıxır, imtahanlarını verir, istirahət üçün kəndə gedir. Amma həmin hadisələri unuda bilmir.

Bir vaxt dostunun avtomobili ilə gəlib hadisənin baş verdiyi həmin o yerləri, qumlu sahili gəzir, xatirələrə dalır. Hadisəni dostuna da danışır. Dostu nə üçün şikayət etmədiyini, yaxud da həmin oğlandan qisas almadığını soruşduqda, tələbə oğlan gözlərini uzaq nöqtəyə zilləyir, sakitcə oturduğu yerdə donub qalır və dərindən köks ötürür...

Bəli, yazıçı dostum Səxavət Ənvəroğlunun gecikmiş məhəbbət, nakam, uğursuz eşq, bəxtsiz talelər haqqında həyat hekayəsini oxuyub, 26.01.2023-ü il tarixində qeydlərimi tamamladım. Bunları ona görə həyat hekayələri adlandırıram ki, bu hekayələrdə baş verən hadisələr həyatdan götürülüb və hər kəsin başına gələ bilər. Odur ki, gənclərimiz ailə həyatı qurmazdan əvvəl özlərinə həmdəm seçdikdə tələsməməli, yüz ölçüb, bir biçməlidirlər. Xüsusən, qızlarımız çalışmalıdır ki, bu hekayələrdə təsvir olunan Pərvanənin və digər qızların tələskənlikdən olan uğursuz məhəbbət macəralarını yaşamasınlar. Çünki, "Tələsən yıxılar, sonrakı peşmançılıq fayda verməz"...

Səxavət dostum bu hekayələri gənclik çağlarında yazdığını qeyd edir. Bu hekayələrin bəlkə də, ilk oxucusu mənəm.

Bəs, Səxavətin hekayə yaradıcılığında diqqətimi nə cəlb etdi?

Gənc çağlarında yazmasına baxmayaraq, bu hekayələrdə poetika güclüdür. Müəllif sadə, bəsit cümlələrdən, demək olar ki, istifadə etməyib. Mən ondakı poetizmə heyran qaldım. Dənizçi-yazıçı poeziyada olduğu kimi, bədii nəsrdə də bədii təsvir və istifadə vasitələrindən yerində istifadə etməklə, söylədiyi fikrin emosional təsir gücünü bir qədər də qüvvətləndirir...

Hekayələrdən verdiyim aşağıdakı nümunələrdə də biz bədii təsvirin poetik tərənnümünü görürük:

1. "Günəş qarşıdakı meşəli dağların axasından tənbəl-tənbəl qalxaraq (metafora), yarıçılpaq "nazlı gəlinlər" kimi (təşbeh) boylanıb naz-qəmzə ilə özünü göstərirdi" ("Tənhalıq şahiddir").
2. "Tərsanənin gözləri yağmağa yığılan bulud kimi dolub, sanki şimşəyin çaxmağını gözləyirmiş kimi, tarıma çəkilmişdi" ("Gecikmiş məhəbbət").
3. "Qız şıltaq ləpələrin əzizlədiyi sahil qumu kimi sakitcə dayanıb, güclə oturduğu yerdə müvazinətini saxlamışdı".
4. Yaxud: "Aram-aram sahilə axan dalğalar həzin layla çalıb körpəsini əzizləyən ana kimi sahil qumlarını oxşayıb sığal çəkdikcə, qoyduğum ayaq izlərinin üstünü örtüb hamarlayırdı"... ("Bəxtsiz talelər").

***"Piyada keçidində"***

"Piyada keçidində" adlı hekayə müəllifin şəxsi müşahidəsi əsasında yazılıb. Müəllif öz şəxsi avtomobilində şəhərdə yol ayrıcında bir hadisənin şahidi olur. Avtomobil yolunun ortasında bir kişi əlində tutduğu solğun çiçək dəstəsi ilə sağa-sola hərəkət edir, nəsə bir qərara gələ bilmir. Maşınlar da dayanıb, siqnal verirdilər, onun bu hərəkəti piyada yol keçənlərin də diqqətini cəlb edir. Nəhayət, səbirsizlik edən bir gənc sürücü avtomobilindən düşüb həmin şəxsi kobudluqla maşın yolundan kənara, səkiyə çəkib, çıxartmaq istəyir. Yol keçən yaşlı bir adam gəncdən kobudluq etməməsini xahiş edib, onun oğlunu itirdiyinə görə bu dərddən bir az havalı olduğunu söyləyir. Yaşlı kişi çarəsiz adamı çəkib səkinin kənarında oturdub, sakitləşdirir...

Yol açılır, nəqliyyat axarına düşür. Müəllif də mühərriki işə salır. Amma yol boyu onu bir fikir narahat edir; "Nə üçün həmin adamı tanıyanlardan kimsə onu qolundan tutub oğlunun məzarını ziyarət etməyə aparmır? Axı niyə? Axı o övlad atasıdır! Buna heç kəs vaxt ayırmaq istəmir. İndi hamı harasa tələsir!"...

***"Unudulmaz xatirələr"***

Peşəsi ilə əlaqədar ömrünün 40 ilə yaxın dövrünü dünya sularında üzməklə keçirən müəllif "Unudulmaz xatirələr" adlı hekayəsində İtaliya səfəri zamanı dostları ilə başına gələn əhvalatı, eyni zamanda İtalyanların bizdən fərqli olan, özlərinə xas adətənənələrini qələmə almışdır.

***"Dilənçinin böyük ürəyi"***

"Dilənçinin böyük ürəyi" hekayəsi də müəllifin şəxsi müşahidəsi əsasında yazılmışdır. Müəllif öz avtomobilinin pəncərəsindən ətrafı seyr edərkən, diqqətini nimdaş geyimdə dilənən bir dilənçi kişi cəlb edir. O, bir əli ilə çiynindən salladığı köhnə bazar çantasını tutmuş, digər əli ilə qorxa-qorxa əl uzadıb dilənirdi. Yol keçənlərdən dilənçiyə qəpik-quruş verən də olurdu, verməyən də. Amma səliqəli geyinmiş orta yaşlı bir kişi ona əl açmış dilənçiyə təpinir, acığını ona tökür. O, dilənçiyə bildirir ki, özü necə aydır işdən qovulub, uşaqları acdır, cibində heç avtobus pulu da yoxdur. Amma sənin ovcun pulla doludur və sair...

Dilənçi onun halına acıyır. Yığdığı bütün pulları onun cibinə basaraq qaçıb-uzaqlaşır...

Getməmiş bildirir ki, o yenə dilənə bilər, təkdir, bir qarın çörək tapa bilər. Amma sizin vəziyyətiniz pisdir, siz bu geyimdə dilənə də bilməzsiniz...

Kişi o tərəf-bu tərəfə boylanır (onları görən varsa), cibindəki pullara baxır, sonra bir söz deməyib yoluna davam edir...

Müəllif bu hadisənin seyrindən təsirlənir. Son sözü də bu olur ki; "deməli insanlıq hələ ölməyib. Yaşamağa dəyər!"...

Yazıçı Səxavət Ənvəroğlu öz yaradıcılığında klassik janrlardan olan alleqorik janra da müraciət etmişdir. Onun "Hiyləgər yalquzaq" və "Tülkü ilə itin sövdələşməsi" əsərləri alleqorik janrdadır.

***"Hiyləgər yalquzaq"***

"Hiyləgər yalquzaq" hekayəsində qocalığına və bacarıqsızlığına görə öz dəstəsindən qovulmuş Yalquzaq, hiylə ilə qoyun sürüsünə başçılıq edən Təkəni ələ alır. Onu inandırır ki, sürüdə qoyunlar arasında satqınlar var. Onlar çobanlar və köpəklərin nə zaman kənarda olmasını canavarlara xəbər verir. O, gündə bir "satqın" qoyunu təkəyə nişan verib onu aradan götürür və kənarda parçalayıb həzm edir. Gec də olsa, Təkə qoca Yalquzağın fırıldağını başa düşərək buynuzları ilə zərbə endirib, onu yerə sərir. Deyir ki, bir də səni buralarda görməyim. Yalquzaq sürünə-sürünə oradan uzaqlaşır...

***"Tülkü ilə itin sövdələşməsi"***.

Səxavət Ənvəroğlunun "Tülkü ilə itin sövdələşməsi" alleqorik əsərində hiyləgər Tülkü bir dovşan tutaraq, aparıb köpəyə hədiyyə edir ki, onunla aralarında dostluq əlaqəsi yaratsın, ev sahibinin qazını, ördəyini, toyuğunu apardıqda Köpək ona göz yumsun, hürüb, adamları oyatmasın. Elə də olur. Ev sahibinin ac saxladığı Köpək, Tülkü üçün şərait yaradır.. nəticədə həm Tülkü həm də özü tox və firavan dolanırlar...

Yazıçı Səxavət Ənvəroğlunun həm hekayələrində, həm də alleqorik əsərlərində ümumləşdirici, ibrətamiz, tərbiyəvi cəhətlər çoxdur. Onun əsərlərini oxuyub obrazları səciyyələndirən oxucu, səhvlərdən nəticə çıxararaq nümunəvi, tərbiyəvi cəhətləri götürməli, onlardan faydalanaraq xoşbəxt, firavan həyat yolunun təməlini möhkəm qurmalıdır.

Düşünürəm ki, bu qədər yetər.

Mən, yazıçı dostum Səxavət Ənvəroğluna poeziyada olduğu kimi, nəsrdə də yeni-yeni yaradıcılıq uğurları arzulayıram.



*Mehrəli QULU,*
***AYB və AJB-nin üzvü,***
***Prezident təqaüdçüsü,***
***"Qızıl qələm" media mükafatı laureatı.***